Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Heydər Əliyev bəşər tarixinə bənzəri olmayan Qurtuluş dahisi olaraq daxil olub

**Dünya xalqlarının və dövlətlərinin çox əsrlik tarixinə nəzər yetirdikdə çox aydın görmək olur ki, hər bir xalqın, dövlətin ayrı-ayrı dövlətlərin müstəmləkə və yarımmüstəmləkə boyunduruğundan xilası üçün tarixi zərurət yarandıqda hımin xalqların önündə gedən tarixi şəxsiyyətlər, Qurtuluş dahiləri mövcud olmuşdur. Eyni zamanda ölkədə hakimiyyətdə olan qüvvələrin xalqa zidd siyasətlərinə qarşı mübarizənin önündə gedən şəxsiyyətlər, hərbi xadimlərdə mövcud olmuşlar. Məsələn Amerika xalqlarının tarixində Amerikanın müstəqil dövlət olaraq dünya birliyinə qovuşması üçün ingilis müstəmləkəçilərinə qarşı xalq hərəkatının önündə gedən Corc Vaşinkton öz xalqının Qurtuluş dahisinə çevrilmişdir.**



İngilis müstəmləkəçilərinin XVIII əsrin 60-cı illərində şimali Amerikada zülmünə qarşı kütləvi hərəkat baş vermişdir.

1775-1783-cü illərdə aparılan istiqlaliyyət mübarizəsi İngiltərənin hökmranlığına son qoydu və ABŞ dövləti yarandı. 1783-cü ildə İngiltərə ABŞ-ın müstəqilliyini tanıdı. 1787-ci ildə ABŞ-ın ilk Konstitusiyası qəbul edilir və Qurtuluş dahisi Corc Vaşinqton prezident seçilib.

Digər dövlətlərin də müstəqillik tarixində, o cümlədən Fransa Respublikasının tarixində də Şarl De Qol kimi Qurtuluş dahisi olmuşdur.

Qardaş Türkiyə Cumhuriyyətinin yaradıcısı türk xalqının Qurtuluş dahisi Mustafa Kamal Atatürk türk dünyasının tarixinə əbədi daxil olmuşdur.

Müdrik, uzaqgörən, bənzərsiz dünyəvi siyasi xadim Heydər Əliyev Azərbaycan xalqının, dünya azərbaycanlılarının, türk dünyasının tərəqqipərvər bəşəriyyətin tarixinə, müasir, müstəqil dövlətçilik tariximizə bu günümüz və gələcəyimiz üçün totalitar kommunist rejimi şəraitində 1970-1987-ci illərdən qurub yaratdığı iqtisadi müstəqilliyimizin əsaslarını, 17 noyabr 1990-cı ildə üç rəngli bayrağımızı Naxçıvandan başlayaraq yüksəklərə qaldırmaqla, dövlət atributlarımızı qəbul etməklə, Sovet Sosialist sözlərini Naxçıvan Muxtar Respublikasının adından çıxarılmasına nail olmaqla kommunist partiyasının fəaliyyətinə son qoymaqla əsasını qoyduğu siyasi müstəqilliyimizi tam şəkildə təmin etmək, qoruyub möhkəmləndirmək, müasir, müstəqil, demokratik, hüquqi Azərbaycan Respublikasını dünya sosializm sisteminin dağılması, kommunist rejiminin süqutunun nəticəsi olaraq dünyada formalaşmaqda, inkişaf etməkdə olan yeni iqtisadi-siyasi, diplomatik münasibətlər sistemində özünə layiq yer tutan dövlət olaraq qurmaq, xalqı xaosdan, anarxiyadan, vətəndaş qarçıdurmasından xilas etmək məqsədilə Azərbaycan xalqının təkidli tələbi ilə hakimiyyətə gələrək Qurtuluş dahisi, xilaskar olaraq daxil olmuşdur. Niyə məhz xalq Naxçıvana rəhbərlik edən Heydər Əliyevə müraciət etdi?! Ona görə ki, çox əsrlik müstəqil dövlətçilik tarixinə malik olan müdrik xalqımız, uzaqgörən ziyalılarımız Heydər Əliyevin min bir əzab-əziyyətlə Sovet Kommunist rejimi şəraitində dünənimiz, bu günümüz vəı gələcəyimiz üçün 1970-1987-ci illərdən qurub yaratdığı müstəqilliyimizin iqtisadi, sosial, hərbi bazasının, kadr potensialımızın, elmimizin, təhsilimizin dağılmasına, torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə AXC-Müsavat ikihakimiyyətliyi tərəfindən zəmin yaradılmasına, ölkəmizdə baş alıb gedən xaos, anarxiya, hakimiyyətsizlik nəticəsində ölkənin cənub, qərb bölgələrinə, ayrı-ayrı xanlıqlara bölünərək Ulu öndər tərəfindən onun təşkilatçılığı və təşəbbüsü ilə Naxçıvandan yüksəkliklərə qaldırılmış və müstəqilliyimizin - siyasi müstəqilliyimizi təmin etmiş üçrəngli bayrağımızın Azərbaycan üzərindən endirilərək siyasi müstəqilliyimizin məhv olması ilə barışa bilməzdi. Xalqın süni etimadını qazanaraq antikonstitusion yollarla hakimiyyətə gəlmiş Azərbaycan Xalq Cəbhəsi - Müsavat ikihakimiyyətliliyinin xalqa zidd çürük, utopik düşüncənin, sərxoş ideyaların,ermənipərəst mövqenin, siyasi məcnunların, dələduzların, siyasi gəmiricilərin, kəsicilərin, həşəratların, siyasi boşboğazların antimilli siyasətlərinin nəticəsində hakimiyyətdə olan qüvvələrin hakimiyyətdən getmələri üçün xalqımız çox doğru seçim etdi.

Xalqımız öz hakimiyyətini, əsl xalq hakimiyyətini qurmaq üçün öz liderinə müraciət etdi. "Xalq-Heydər, Heydər-xalq" fəlsəfəsi, vəhdəti, birliyi hakimiyyətdə olan AXC-Müsavat ikihakimiyyətliyi dövründə onların xalqa zidd addımlarının tərkib hissəsi olaraq xalq ilə Heydər Əliyev arasında uçurum yaratmaq, xalqın təkidli tələbi ilə onun hakimiyyətə gəlməsinin qarşısını almaq məqsədilə 1992-ci ilin 24 oktyabrından 25 oktyabra keçən gecə Naxçıvanda Ulu öndərə qarşı dövlət çevrilişinə cəhd edildi.

**Həmin günlərdən Heydər-xalq fəlsəfəsi daha da geniş miqyas aldı, respublikamızın hər bir şəhərində, rayonunda, kəndində bu fəlsəfi fikir müasir, müstəqil dövlətçilik tariximizdə yeni bir dövrün başlanğıcını qoydu.**

Heydər-xalq, xalq-Heydər fəlsəfəsi, birliyi tez bir zamanda 1993-cü il 15 iyun tarixində xalqımızın istək və arzularına uyğun olaraq Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı ilə - Qurtuluş günü ilə nəticələndi. Qurtuluş dahisi, xilaskar, müasir, müstəqil dövlətçilik tariximizin banisi, bənzərsiz dünyəvi siyasi xadim Heydər Əliyevi dünya tarixində mövcud olmuş Qurtuluş dahilərindən fərqləndirən çox saylı siyasi üstünlükləri vardır.

Müdruk, uzaqgörən, bənzərsiz, dünyəvi siyasi xadim Heydər Əliyevin digər ölkələrin, xalqların tarixinə qurtuluş dahisi olaraq daxil olmuş rəhbərlərdən fərqli cəhətləri, üstünlüyü ondan ibarətdir ki, o, hakimiyyətə silahlı qüvvələrin dəstəyi ilə hansısa ölkənin müstəmləkəçilik, dominatlıq siyasətinə qarşı müharibə aparmaqla öz xalqını müstəqilliyə qovuşdurmamasıdır. O, nə milli azadlıq hərəkatlarına, nə də inqilablara hərbi qüvvələrin iştirakı ilə rəhbərlik etməmişdir. Yəni hərbi yollarla müharibədə qələbə əldə etməklə xalqımıza müstəqillik bəxş etməmişdir, hakimiyyətə gəlməmişdir.

Qurtuluş dahisi Heydər Əliyev 70 il tərkibində olduğumuz totalitar kommunist rejimi ilə idarə edilən sovet dövlətlərində ən yüksək vəzifələrdə-Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqında ən ali rəhbər orqan olan siyasi büro üzvü-yəni 270 milyondan artıq əhalisi olan dövlətin idarəçiliyini həll edən 11 nəfər siyasi büro üzvündən biri, Nazirlər Soveti sədrinin birinci müavini, hökumətin sosial siyasət komissiyasının sədri, şərq ölkələri üzrə dövlət müşaviri vəzifələrində işləmişdir. SSRİ kimi nəhəng dövlətin ən yüksək rəhbərliyində olmuşdur.

1941-ci illərdən başlayaraq 1987-ci illərədək olan dövürdə çox böyük uzaqgörənliklə, ustalıqla tabeliyində olduğumuz dövlətin dövlət büdcəsindən, respublikamızın gəlirlərindən özünün nüfuzundan istifadə edərək iri və orta sənaye müəssisələrinin, yüngül sənaye, məişət cihazları, kondisionerləri, neft kimya, qaz sənayesi zavodlarının, kənd təsərrüfatı komplekslərinin, aqrar-sənaye birliklərinin, yaşayış evlərinin, infrastruktur obyektlərinin və s. ağır və yüngül sənaye müəssisələrinin tikintisinə Azərbaycanda inşa edilməsinə, fəaliyyət göstərməsinə nail olmaqla müasir, müstəqil dövlətimizin iqtisadi müstəqilliyinin əsaslarını qoymuşdur. Yəni həmin illərdən xalqımıza iqtisadi müstəqillik bəxş etmişdir. 1971-ci ildə Bakıda hərbiçi kadrlar hazırlayan məktəb təşkil etməklə hərbi quruculuğumuzun, müstəqil dövlətimizin, ordu quruculuğunun əsaslarını qoymaqla, 1978-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dilini respublikada dövlət dili olaraq qəbuluna nail olmaqla azərbaycançılıq ideologiyamızın tərəqqisinə yol açmaqla, həyatının siyasi təziqlər və repressiya illərində (1987-1990-cı illərdə) Moskvada "Azərbaycan" cəmiyyəti yaratmaqla, 1990-cı il 20 yanvar soyqırımı ilə əlaqədar Azərbaycan nümayəndəliyindəı sovet rəhbərliyinə qarşı, dünyanın nəzər diqqətini bu qanlı cinayətə yönəltməyə hesablanmış çıxış etməklə müasir, müstəqil



dövlətimizin xarici siyasətinin əsas istiqamətlərindən biri olan diaspora hərəkatının, lobbiçilik fəaliyyətinin əsaslarını qoymaqla, 1990-cı il noyabrın 17-də üçrəngli bayrağımızı, gerbimizi, himnimizi Naxçıvandan başlayaraq qəbul olunmasına nail olmaqla hələ sovet dövlətinin mövcudluğu şəraitində xalqımıza siyasi müstəqilliyi bəxş etmişdir.

**Ona görə də Azərbaycan xalqı tarixi keçmişinə müdrik rəhbərimizin uzaqgörənliyinə yüksək qiymət verərək onu təkidlə yenidən hakimiyyətə dəvət etmişdir.**

Müdrik uzaqgörən bənzərsiz dünyəvi siyasi xadim Heydər Əliyevin digər dövlətlərin Qurtuluş dahilərindən siyasi xadimlərdən, siyasi nəzəriyyələrin, siyasi baxışların ideologiyaların müəlliflərindən, onların dünya sosializm, kommunizm, kapitalizm nəzəriyyəçilərindən, məsələn Corc Vaşinqtondan, Atatürkdən, Şarl De Qoldan, Karl Marksdan, Engelsdən, Lenindən, Çörçildən, Ruzveltdən, Maozidundan və digər onlarla siyasi xadimdən, Qurtuluş dahilərindən ən əsas fərqi, bənzərsizliyi, üstünlüyü onun hakimiyyətə qeyd etdiyimiz kimi inqilabi yolla, dövlət çevrilişi etməklə, milli azadlıq hərəkatına, müharibələrdə üstünlüyü əldə etməklə, bir qrup mürtəce qüvvənin təşkilatçılığı ilə müstəmləkəçi ölkələrə qarşı mübarizənin önündə getməklə və s. səbəblərə görə hakimiyyətə gəlməməsidir, zorakı yollarla hakimiyyəti ələ keçirməsidir, antikonstitusion yollarla hakimiyyətə gəlməməsidir.

Heydər Əliyev bildiyimiz kimi iki dəfə hakimiyyətə gəlmişdir. Sovet dövlətinin mövcudluğu dövründə və sovetlər ittifaqının dağılmasından sonra müstəqil Azərbaycan Respublikasında hakimiyyətə gətirilmişdir.

Müdrik uzaqgörən siyasi xadim Heydər Əliyev birinci dəfə hakimiyyətə tərkibində olduğumuz dövlətin - SSRİ rəhbərliyinin Sovet İttifaqı Kommunist Partiyasının baş katibi Leonid Brejnevin onun Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olaraq sovet dövlətində, ittifaq miqyasında xarici ölkələrdə nüfuzunun yüksək səviyyədə olmasına, SSRİ kimi nəhəng dövlətin daxili və xarici siyasətini, milli, dini məsələləri, hərbi-siyasi, beynəlxalq münasibətləri, iqtisadiyyatı, sosial məsələləri dərindən bilməsinə, gənc general olaraq ittifaq miqyasında, eyni zamanda xarici ölkələrdə DTK-nın nüfuzunu yüksəltməsinə, kəşfiyyat və əks-kəşfiyyat sahələrinə yeniliklər gətirməsinə, kosmik tədqiqatlara dərindən yiyələnməsinə, siyasi təfəkkürə, fəlsəfi uzaqgörən düşüncə tərzinə, baş verə biləcək hadisələri qabaqcadan duyma, hissetmə, görmə və qabaqlayıcı tədbir görmə qabiliyyətinə,diplomatik bacarıqlarına, siyasi dünyagörüşünə, manevr etmə bacarığına, eyni zamanda onun şəxsiyyətinin əsas fərdi xüsusiyyətlərinə, daxili mədəniyyətinə, dinləmə bacarığına, daxili aləmi seyretmə, düşüncə və təhliletmə, cevikliyinə, səmərəli qərarvermə, etibarlılıq, əməksevərlik, yüksək rəhbərlik qabiliyyətinə, siyasi yaradıcılıq-sirr saxlamaq, sadəlik, ünsiyyətlilik və s. xüsusiyyətlərinə və siyasi qabiliyyətinə sovrt dövləti siyasi büro adından və şəxsən dövlət başçısı olaraq öz adından verdiyi qiymətin nəticəsi olaraq gətirilmişdir.

1969-cu ildə sovet dövlətinin Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Yuri Andropov Azərbaycan SSR DTK-nin sədri general-mayor Heydər Əliyevi Moskvaya dəvət edir. Onu SSRİ Dövlət TəhlükəsizliyiKomitəsi sədrinin birinci müavini təyin etmək istəyir. Təyinatla əlaqədar dövlət başçısı Brejnev Heydər Əliyevi qəbul edir. Onlar arasında söhbət on beş dəqiqə əvəzinə iki saat yarım davam edir. Bu zaman Andropov Brejnevə zəng edərək bildirir ki, "Biz Heydər Əliyeviçi gözləyirik, niyə hələ də gəlməyib bizim yanımıza?!" Brejnev Andropova bildirir ki, "Mən hələ Heydər Əliyeviç kimi yüksək keyfiyyətlərə malik, siyasi dünyagörüşə malik, diplomatik dünyagörüşə malik kadra rast gəlməmişəm. Mən onu Azərbaycana rəhbər təyin edirəm".

*(Ardı var)*

**Dəmir QURBANLI,**
**Heydər Əliyev siyasi kursunun təbliğatçısı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Azad Azərbaycan" qəzetinin şöbə müdiri, "Qızıl Qələm", "Azərbaycan Bayrağı", "Xalqın nüfuzlu ziyalısı" media mükafatları laureatı, ehtiyatda olan zabit**